UOT: 617.72-002:616-036

Məcidova S.R., Tağıyev Q.N., Güllərov O.Ə., Həmidov E.E.

AZƏRBAYCANIN REGİONALARINDA UVEİT VƏ UVEAL QLAUKOMANIN EPİDEMİOLOJİ XÜSUSİYYƏTLƏRİNİN BƏZİ ASPEKTLƏRİ

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Cavadxan küç., 32/15 AZ1114, Bakı şəh., Azərbaycan

Korrespondensiya üçün:
Məcidova Sabina Romel qızı, t.ü.f.d., Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktor müavini
E-mail: sabinamedjidova@gmail.com
https://orcid.org/0009-0001-5829-5759

İstinad üçün:
Məcidova S.R., Tağıyev Q.N., Güllərov O.Ə., Həmidov E.E. Azərbaycanın regionalarında uveit və uveal qlaukomanın epidemioloji xüsusiyyətlərinin bəzi aspektləri. Azərbaycan Oftalmologiya Jurnalı, 2025, 17; 3 (54): 37-45.

Müəlliflərin iştirakı:
Tədqiqatın anlayışı və dizaynı: Məcidova S.R.
Materialın toplanması və işlənməsi: Tağıyev Q.N., Güllərov O.Ə., Həmidov E.E., Məcidova S.R.
Statistik məlumatların işlənməsi: Məcidova S.R., Tağıyev Q.N., Güllərov O.Ə., Həmidov E.E.
Mətnin yazılması: Məcidova S.R., Tağıyev Q.N., Güllərov O.Ə., Həmidov E.E.
Redaktə: Məcidova S.R.

Müəlliflər münaqişələrin (maliyyə, şəxsi, peşəkar və digər maraqları) olmaması təsdiqləyirlər

Daxil olmuşdur 04.08.2025
Çapa qəbul olunmuşdur 19.09.2025

XÜLASƏ

Məqsəd – Azərbaycanın regionalarında uveit və uveal qlaukomanın (UQ) epidemioloji xüsusiyyətlərinin bəzi aspektlərini qiymətləndirmək.

Material və metodlar
Tədqiqat Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə və Masallı, Gəncə, Şəki filiallarına 2008-2025-ci illər ərzində uveit və UQ ilə müraciət edən pasiyentlərin klinik və elektron məlumat bazasının (1C-EMS) materiallarının retrospektiv klinik, epidemioloji və etiopatogenetik təhlili əsasında aparılıb. Müayinə üsulları: oftalmoloji, ümumi klinik, laborator, statistik.

Nəticələr
Aparılan təhlil nəticəsində məlum olmuşdur ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və filiallarına 2008-2025-ci illər ərzində uveit ilə müraciət edən 2877 pasiyentin əksər hissəsi 19 - 70 yaş arasında (91,4%) qeydə alınmışdır (35,5% kəskin, 64,5% isə xronik mərhələdə). Onlardan ən çoxu Bakıya Mərkəzə - 2179 (75,7%), filiallara isə 698 nəfər (24,3%) müraciət edib. Ümumilikdə, bütün müraciətlərə nisbətən uveit ilə müraciət edən pasiyentlərin sayı 0,41% təşkil edib. İllər üzrə müqayisədə ən çox uveit ilə pasiyentlərin müraciətlərinin sayı Bakıda – 2018, 2024, Masallıda – 2017, 2022, Gəncədə – 2017, 2024, Şəkidə – 2020-ci illərdə qeydə alınıb. Uveit ilə kişilər daha çox Bakı (55,3%) və Masallı (67,5%), qadınlar isə Gəncə (62,4%) və Şəki (61,1%) filiallarına müraciət etmişdirlər. Uveitlərin daha çox qeyri-infeksion etiologiyasının (59,4%) və arxa anatomik lokalizasiyasının rastgəlmə tezliyi (37,8%) aşkar edilmişdir. 2877 pasiyentdən 837-də (29,1%) uveal oftalmohipertenziya (UOH), 346-də (12,03%) UQ aşkar olunmuşdur. UOH əsasən ön uveit zamanı (657 xəstədə, 78,5%), UQ isə uveitin xronik mərhələsində (66,5%) aşkar olunmuşdur. UQ ilə pasiyentlərin gecikmiş daha çox ifrat inkşaf etmiş mərhələsində ilkin müraciəti (40,2%) radikal cərrahiyyə müalicə üsullarının seçiminə məcbur edir. Uveit ilə pasiyentlərdə də aparılan hər hansı cərrahi müdaxilə əməliyyatdan sonrakı iltihab prosesinin kəskinləşməsinə də səbəb ola bilər.

Yekun
Uveitlərin daha çox qeyri-infeksion etiologiyası (59,4%) və arxa anatomik lokalizasiyası (37,8%) aşkar olunmuş, 29,1%-də UOH, 12,03%-də isə UQ qeydə alınmışdır. UQ əsas xronik uveitin (66,5%) və ifrat inkşaf etmiş mərhələsində (40,2%) aşkar olunması radikal cərrahiyyə müalicə üsullarının seçiminə məcbur edir. UQ-nın inkişaf riskini azaltmaq məqsədilə uveit ilə pasiyentlərin dispanserizasiyası, müayinə və müalicəsində multidissiplinar yanaşma taktikasının seçimi, UOH olan xəstələrin daim dinamik müşahidəsi və iltihabəleyhinə müalicə ilə yanaşı müvafiq hipotenziv, neyroprotektiv kompleks müalicənin vaxtında aparılması məsləhətdir.

Açar sözlər: *uveit, uveal qlaukoma, epidemioloji xüsusiyyətlər*

UDC: 617.72-002:616-036

Majidova S.R., Taghiyev G.N., Gullarov O.A., Hamidov E.E.

SOME ASPECTS OF THE EPIDEMIOLOGICAL CHARACTERISTICS OF UVEITIS AND UVEITIC GLAUCOMA IN THE REGIONS OF AZERBAIJAN

National Ophthalmology Centre named after Academician Zarifa Aliyeva, 32/15, Javadkhan str., AZ1114, Baku, Azerbaijan

For correspondence:
Majidova Sabina Romel, PhD, Deputy Director of the National Ophthalmology Centre named after Academician Zarifa Aliyeva
E-mail: sabinamedjidova@gmail.com
https://orcid.org/0009-0001-5829-5759

For citation:
Majidova S.R., Taghiyev G.N., Gullarov O.A., Hamidov E.E. Some aspects of the epidemiological characteristics of uveitis and uveitic glaucoma in the regions of Azerbaijan. Azerbaijan Journal of Ophthalmology, 2025, 17; 3 (54): 37-45. (In Azerb.).

Authors participation:
Concept and design of investigation: Majidova S.R.
Material collection and processing: Taghiyev G.N., Gullarov O.A., Hamidov E.E., Majidova S.R.
Statistical data processing: Majidova S.R., Taghiyev G.N., Gullarov O.A., Hamidov E.E.
Spelling text: Majidova S.R., Taghiyev G.N., Gullarov O.A., Hamidov E.E.
Editing: Majidova S.R.

The authors confirm that there are no conflicts (financial, personal, professional and other interests).

Received 04.08.2025
Accepted 19.09.2025

SUMMARY

Purpose – to evaluate some aspects of the epidemiological characteristics of uveitis and uveitic glaucoma (UG) in the regions of Azerbaijan.

Material and methods
The study was conducted based on a retrospective clinical, epidemiological, and etio-pathogenetic analysis of the clinical and electronic databases (1C-EMS) of patients who presented with uveitis and UG to the National Ophthalmology Centre named after Academician Zarifa Aliyeva and its Masally, Ganja, and Sheki branches between 2008 and 2025. Methods of examination: ophthalmological, general clinical, laboratory, statistical.

Results
The analysis revealed that the majority of 2,877 patients diagnosed with uveitis who applied to the National Ophthalmology Centre named after Academician Zarifa Aliyeva and its branches during 2008-2025 were between the ages of 19 and 70 (91.4%) (35.5% in the acute stage, 64.5% in the chronic stage). Most of them applied to the Centre in Baku - 2,179 (75.7%), and 698 people (24.3%) applied to the branches. Overall, patients with uveitis accounted for 0.41% of all applications. Compared by the years, the highest number of patient applications with uveitis was recorded in Baku in 2018 and 2024, in Masally in 2017 and 2022, in Ganja in 2017 and 2024, and in Sheki in 2020. Men with uveitis applied more often to Baku (55.3%) and Masally (67.5%), while women applied more often to Ganja (62.4%) and Sheki (61.1%) branches. It was found that uveitis of non-infectious etiology (59.4%) and posterior anatomical localization (37.8%) were more frequent. Uveitic ocular hypertension (UOH) was detected in 837 (29.1%) of the 2,877 patients, and uveitic glaucoma (UG) was found in 346 (12.03%). UOH was mainly observed during anterior uveitis (in 657 patients, 78.5%), while UG was found in the chronic stage of uveitis (66.5%). The fact that 40.2% of patients with UG present at an extremely advanced stage of the disease necessitates the selection of radical surgical treatment methods. Any surgical intervention performed on patients with uveitis can also lead to exacerbation of the postoperative inflammatory process.

Conclusion
Most of the uveitis cases were of non-infectious etiology (59.4%) and posterior anatomical localization (37.8%), with UOH recorded in 29.1% and UG in 12.03%. The detection of UG in the primary chronic uveitis (66.5) and the extremely advanced stage (40.2%) forces the choice of radical surgical treatment methods. In order to reduce the risk of developing UG, it is advisable to choose a multidisciplinary approach to the dispanserization, examination, and treatment of patients with uveitis, to constantly monitor patients with UOH, and to provide appropriate hypotensive and neuroprotective complex treatment in a timely manner, in addition to anti-inflammatory treatment.

Key words: *uveitis, uveitic glaucoma, epidemiological characteristics*

Uveit xəstəliyinin çoxfaktorlu xarakterini (etiologiyası, lokalizasiyası, mərhələsi, aparılan müalicəsi və s.) nəzərə alaraq, uveit 10 - 60% hallarda ikincili qlaukoma ilə fəsadlaşır, halbuki qlaukomanın bütün nozoloji formaları arasında UQ-nın nisbəti 24 - 40% təşkil edir [1 - 3]. UQ əmək qabiliyyətli əhalinin arasında monokulyar və binokulyar korluğa səbəb olaraq uveitin ağır fəsadlarından biridir [4]. Müasir ədəbiyyatda qlaukoma mənşəli optik neyroptiyanın yaranmasında immunoloji sistemin rolu tez-tez müzakirə olunur [5]. Aparılan son tədqiqatlara görə, Azərbaycanda 2020 – 2022 illər ərzində uveit nəticəsində görmənin azalmasına səbəb olan ən çox yayılmış ikincili ağırlaşmaların arasında olan UQ faiz göstəricisi 32,9% təşkil edir [6]. UQ-ın müalicə taktikasının seçilməsi bu ağır fəsadın inkişafına səbəb olan müxtəlif etiopatogenetik amillərin təsiri ilə əlaqədardır. Əsas iltihab prosesinin etiotrop və simptomatik müalicəsi ilə yanaşı UQ-nın terapiyası konservativ və cərrahi tədbirlər kompleksidir, onların hər birinin zəruriliyi xəstənin dinamik müşahidəsi zamanı müəyyən edilir [6, 7]. Lakin, məlum olduğu kimi, birincili qlaukoma zamanı gözdaxili təzyiqin kompensasiya mərhələsində də, xüsusən də somatik patologiyanın fonunda, 20-86% hallarda qlaukomatoz optik neyropatiyanın inkişafı istisna olunmur [8].

Məqsəd – Azərbaycanın regionalarında uveit və UQ-nın epidemioloji xüsusiyyətlərinin bəzi aspektlərini qiymətləndirmək.

Material və metodlar

Tədqiqat Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə və Masallı, Gəncə, Şəki filiallarına uveit və UQ ilə müraciət edən pasiyentlərin klinik və elektron məlumat bazasının (1C-EMS) materiallarının retrospektiv müqayisəli klinik, epidemioloji və etiopatogenetik təhlili əsasında aparılıb.

Müayinə üsülları: oftalmoloji, ümumi klinik, laborator, statistik.

- Oftalmoloji müayinələr: vizometriya, refraktometriya, tonometriya, perimetriya, biomikroskopiya, göz dibinin oftalmoskopiyası və fotoreqistrasiyası, qonioskopiya, gözün ultrasəs müayinəsi (A və B skanoqramma), optik koherent tomoqrafiya (OKT), ritmik elektroretinoqrafiya və çağrılmış görmə potensiallarının qiymətləndirilməsi, görmə siniri diskinin lazer konfokal skanedici tomoqrafiyası (HRT), göz dibinin fluoressent angioqrafiyası (FAQ).
- Klinik müayinələr: şikayətlərin və anemnezin ətraflı sorğusu, daxili üzvlərin ultrasəs müayinəsi, döş qəfəsinin və ehtiyac duyularsa burunətrafı boşluqların, onurğa sütununun, digər oynaqların rentgenoloji müayinəsi, tələb olunarsa maqnitorezonans və ya kompüter tomoqrafiyasının aparılması. Müvafiq sahə üzrə mütəxəssislərin (revmatoloq, ftiziatr, endokrinoloq, otolorinqoloq və s.) konsultasiyası.
- Laborator müayinələr: qanın və sidiyin ümumi analizi, qanda şəkərin və qlikolizəolunmuş hemoqlobinin ölçülməsi, revmatoloji testlər, müxtəlif infeksiyaların seroloji müayinələri, qara ciyər və böyrəyin funksional testləri, immunoloji müayinələr.
- Statistik: İBM statistics SPSS-26.

Nəticələr

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və filialları üzrə uveit və UQ ilə müraciət edən pasiyentlərin aparılan epidemioloji təhlilin əsas aspektlərinin nəticələri aşığıda 4 cədvəldə və 8 diaqramda təqdim olunur. **Cədvəl 1**-də və **diaqram 1**-də uveit ilə müraciət edən pasiyentlərin ümumi və nisbi sayı Bakıya Mərkəzə – 2014-2025-ci, Masallı filialına – 2008-2025-ci, Gəncə filialına – 2016-2025-ci, Şəki filialına – 2019-2025-ci illər ərzində qeyd olunub.

Təhlilin nəticələrinə əsasən, uveit ilə müraciət edən pasiyentlərin ümumi sayı 2877 nəfər, onlardan ən çoxu Bakıda Mərkəzdə qeydə alınıb (2179; 75,7%). Filiallara uveit ilə 698 nəfər (24,3%) müraciət edib. Ümumilikdə bütün müraciətlərə nisbətən uveit ilə müraciət

Cədvəl 1. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin sayı*

Mərkəz və filialları	*Müraciət tarixləri*	*Ümumi say (n)*	*Nisbi say (%)*
Bakı	2014 - 2025	2179	0,49
Masallı	2008 - 2025	398	0,23
Gəncə	2016 - 2025	210	0,39
Şəki	2019 - 2025	90	0,29
	Cəmi	***2877***	***0,41***



Diaqram 1. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin illər üzrə müqayisəli hesabatı.*

edən pasiyentlərin sayı 0,41% təşkil edib. İllər üzrə müqayisədə ən çox uveit ilə pasiyentlərin müraciətlərinin sayı Bakıda – 2018, 2024-cü, Masallıda – 2017, 2022-ci, Gəncədə - 2017, 2024-cü, Şəkidə - 2020-ci illərdə qeydə alınıb. Pasiyentlərin müxtəlif illərdə Bakıya və filiallara fərqli müraciətlərin əsas səbəblərindən birində COVİD-19 pandemiyasının karantin rejiminin rolu istisna olunmur.

Cədvəl 2-də və **cədvəl** 3-də uveit ilə pasiyentlərdə UOH və UQ yaranma tezliyinin göstəriciləri yuxarıda göstərilən illər ərzində ümumi və nisbi sayı təqdim olunub. Təhlilin nəticələrinə əsasən uveit ilə müraciət edən pasiyentlərin 29,1%-də UOH aşkar olunub, bunlardan Bakıya müraciət edənlərin 56,8% gözün damarlı qişanın iltihab prosesinin kəskin, 43,2% isə xronik mərhələsində olub. Filiallarda isə, əksinə, UOH ilə pasiyentlərin 36,3%-i kəskin, daha çoxu isə (63,7%) uveitin artıq xronik mərhələsində müraciət edib. Uveit ilə müraciət edən pasiyentlərin 12,03%-da UQ həm Bakıda, həm filiallarda daha çox uveitin xronik mərhələsində aşkar olunub (66,5%).

Cədvəl 2. *Uveit ilə pasiyentlərdə UOH yaranma tezliyinin ümumi (n) və nisbi (%) göstəriciləri*

Mərkəz və filialları	*UOH cəmi (n, %)*	*Kəskin mərhələdə (n, %)*	*Xronik mərhələdə (n, %)*
Bakı	614 (28,2)	349 (56,8)	265 (43,2)
Masallı	138 (34,7)	53 (38,4)	85 (61,6)
Gəncə	62 (29,5)	21 (33,9)	41 (66,1)
Şəki	23 (25,5)	7 (31)	16 (69)
Cəmi	***837 (29,1)***	***430 (51,4)***	***407 (48,6)***

Növbəti yeddi diaqramda Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və regional filiallarına uveit ilə müraciət edən pasiyentlərin yuxarıda qeyd olunan illər ərzində cins, yaş, klinik gedişat, etiologiya, iltihab prosesinin anatomik lokalizasiya parametrlərinə görə müqayisəli təhlilin nəticələri təqdim olunub. Uveit ilə kişilər daha çox Bakı (55,3%) və Masallı (67,5%), qadınlar isə Gəncə (62,4%) və Şəki (61,1%) filiallarına müraciət etmişdirlər **(diaqram 2)**.

Cədvəl 3. *Uveit ilə pasiyentlərdə UQ yaranma tezliyinin ümumi (n) və nisbi (%) göstəriciləri*

Mərkəz və filialları	*UOH cəmi (n, %)*	*Kəskin mərhələdə (n, %)*	*Xronik mərhələdə (n, %)*
Bakı	275 (12,6)	96 (34,9)	179 (65,1)
Masallı	39 (9,8)	11 (28,2)	28 (71,8)
Gəncə	22 (10,5)	5 (22,7)	17 (77,3)
Şəki	10 (11,1)	4 (40)	6 (60)
Cəmi	***346 (12,03)***	***116 (33,5)***	***230 (66,5)***



Diaqram 2. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin cins üzrə müqayisəli hesabatı.*



Diaqram 3. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin yaş üzrə müqayisəli hesabatı.*



Diaqram 4. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin yaş üzrə təfərrüatı ilə müqayisəli hesabatı.*



Diaqram 5. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin klinik gedişatına görə müqayisəli hesabatı.*



Diaqram 6. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə xronik uveit ilə müraciət edən pasiyentlərin klinik gedişatına görə müqayisəli hesabatı.*

Həm Bakıya, həm filiallara uveit ilə müraciət edən pasiyentlərin əksər hissəsi 19 - 70 yaş arasında böyüklər idi: Bakıya – 41-50 yaş (22,4%), Masallıya – 31- 40 yaş (20,9 %), Gəncəyə – 61- 70 yaş (21,9%), Şəkiyə - 61-70 yaş (28,9%) (**diaqram 3, 4**). Masallı filialına uveit ilə cavan və orta yaşlarda pasiyentlərin müraciəti cənub bölgədə Behçet və Behterev xəstəliklərinin yayılması ilə əlaqədar ola bilər.

Gəncə və Şəki filiallarına daha çox 61-70 yaşda pasiyentlərin ilkin müraciəti uveitin artıq xronik, ikincili ağırlaşmaları (UQ, uveal katarakta, tor qişanın qopması, proloferativ vitreoretinopatiya, göz almasının subatrofiası) olan vəziyyətini əks etdirir. Buna sübut olaraq, **diaqram 5**-də uveit ilə pasiyentlərin klinik gedişatına görə müqayisəli hesabatın nəticələri təqdim olunub: orta hesabla Bakıya Mərkəzə və filiallarına bütün halların 64,5%-də gözün damarlı qişasının iltihab prosesinin xronik vəziyyətində ilkin müraciəti qeydə alınıb, bunlardan da 70,4%-i sonrakı müşahidə dövründə residiv etdiyinə görə təkrar müayinə və müalicə olunub (**diaqram 6**).

Uveit ilə pasiyentlərin gecikmiş, xronik mərhələdə ilkin müraciətləri UQ-nın da inkişaf və ifrat etmiş dekompensə mərhələsində daha çox rast gəlməsinin əsas səbəbidir (cədvəl 4). Cədvəl 4-də təqdim olunan nəticələrə əsasən, həm qapalı bucaqlı, həm açıq bucaqlı UQ-nın rastgəlmə tezliyi daha çox ifrat inkişaf etmiş mərhələdə qeydə alınmışdır. Bundan əlavə, qapalı bucaqlı və açıq bucaqlı UQ mərhələlərinin arasında rastgəlmə tezliyində statistik əhəmiyyətli fərq aşkar olunmamışdır (p>0,05).

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və filiallarının məlumat bazasına əsasən aparılan müqayisəli təhlil nəticəsində uveitlərin daha çox qeyri-infeksion etiologiyasının (59,4%) (diaqram 7) və arxa anatomik lokalizasiyasının rastgəlmə tezliyi (37,8%) (diaqram 8) aşkar edilmişdir.

Cədvəl 4. *UQ mərhələlərinin rastgəlmə göstəricilərinin müqayisəli hesabatı (n,%)*

		QUQ (n, %)	*AUQ (n, %)*	*Cəmi*
Başlanğıc	*I*	24 (12,6)	18 (11,6)	42 (12,1)
İnkişaf etmiş	*II*	59 (30,9)	44 (28,4)	103 (29,8)
İfrat inkişaf etmiş	*III*	80 (41,9)	59 (38,1)	139 (40,2)
Terminal	*IV*	28 (14,6)	34 (21,9)	62 (17,9)
	Cəmi	***191 (55,2)***	***155 (44,8)***	***346 (100)***



Diaqram 7. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin etiologiyaya görə müqayisəli hesabatı.*



Diaqram 8. *Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə uveit ilə müraciət edən pasiyentlərin anatomik lokalizasiyaya görə müqayisəli hesabatı.*

Müzakirə

Aparılan təhlil nəticəsində məlum olmuşdur ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və filiallarına 2008-2025-ci illər ərzində uveit ilə müraciət edən 2877 pasiyentin əksər hissəsi 19 - 70 yaş arasında (91,4%) qeydə alınmışdır (35,5% kəskin, 64,5% isə xronik mərhələdə). Onlardan ən çoxu Bakıya Mərkəzə - 2179 (75,7%), filiallara isə 698 nəfər (24,3%) müraciət edib. Ümumilikdə bütün müraciətlərə nisbətən uveit ilə müraciət edən pasiyentlərin sayı 0,41% təşkil edib. İllər üzrə müqayisədə ən çox uveit ilə pasiyentlərin müraciətlərinin sayı Bakıda – 2018, 2024-cü, Masallıda – 2017, 2022-ci, Gəncədə - 2017, 2024-cü, Şəkidə - 2020-ci illərdə qeydə alınıb. Uveit ilə kişilər daha çox Bakı (55,3%) və Masallı (67,5%), qadınlar isə Gəncə (62,4%) və Şəki (61,1%) filiallarına müraciət etmişdirlər. Uveitlərin daha çox qeyri-infeksion etiologiyasının (59,4%) və arxa anatomik lokalizasiyasının rastgəlmə tezliyi (37,8%) aşkar edilmişdir. 2877 pasiyentdən 837- də (29,1%) UOH, 346-da (12,03%) UQ aşkar olunmuşdur. Aldığımız göstəricilərin müasir ədəbiyyatda verilən məlumatlarla oxşarlığı ilə yanaşı [2, 5, 9], aparılan tədqiqatda UOH əsas ön uveit zamanı (657 xəstədə, 78,5%), UQ isə uveitin xronik mərhələsində (66,5%) aşkar olunmasını qeyd etmək lazımdır. UQ ilə pasiyentlərin gecikmiş daha çox ifrat inkşaf etmiş mərhələsində ilkin müraciəti (40,2%) radikal cərrahiyyə müalicə üsullarının seçiminə məcbur edir. Uveit ilə pasiyentlərdə də hər hansı cərrahiyyə müdaxiləsinin aparılması əməliyyatdan sonrakı iltihab prosesinin kəskinləşməsinə səbəb ola bilər.

Yekun

Uveitlərin daha çox qeyri-infeksion etiologiyası (59,4%) və arxa anatomik lokalizasiyası (37,8%) aşkar olunmuş, 29,1%-də UOH, 12,03%-də isə UQ qeydə alınmışdır. UQ əsas xronik uveitin (66,5%) və ifrat inkşaf etmiş mərhələsində (40,2%) aşkar olunması radikal cərrahiyyə müalicə üsullarının seçiminə məcbur edir. UQ-nın inkişaf riskini azaltmaq məqsədilə uveit ilə pasiyentlərin dispanserizasiyası, müayinə və müalicəsində multidissiplinar yanaşma taktikasının seçimi, UOH olan xəstələrin daim dinamik müşahidəsi və iltihaba qarşı müalicə ilə yanaşı müvafiq hipotenziv, neyroprotektiv kompleks müalicənin vaxtında aparılması məsləhətdir.

ƏDƏBİYYAT

REFERENCE

1. Касимов, Э.М. Результаты клинико-эпидемиологического и этиопатогенетического мониторинга увеальной глаукомы / Э.М.Касимов, С.Р.Меджидова, С.Н.Ибрагимова // Азербайджанский офтальмологический журнал, – Баку: – 2021. 39(4), – с. 24-35.
2. Škrlová, E. Pathogenesis and current methods of treatment of secondary uveitic glaucoma. A review / E.Škrlová, P.Svozílková, J.Heissigerová [et al.] // Cesk. Slov. Oftalmol., – 2023. 79(3), – p. 111-115. https://doi.org/10.31348/2023/7
3. Lee, J.Y. Structure-Function Relationship and Vision-Related Quality of Life in Glaucoma Secondary to Anterior Uveitis: Comparison with Open Angle Glaucoma / J.Y.Lee, J.H.Kim, T.Y.La [et al.] // J. Clin. Med., – 2021. 10(18), – p. 4231. https://doi.org/10.3390/jcm10184231
4. Касимов, Э.М. К изучению современных эпидемиологических особенностей распространения глаукомы в Азербайджане / Э.М.Касимов, Р.Б.Агаева, Н.М.Рустамова [и др.] // Азербайджанский Офтальмологический Журнал, – 2022. 3(42), – с. 51-57.
5. Kalogeropoulos, D. Pathogenesis of Uveitic Glaucoma / D.Kalogeropoulos, C.S.Velota // J. Curr. Glaucoma Pract., – 2018. Sep-Dec; 12(3), – p. 125-138. https://doi.org/10.5005/jp-journals-10028-1257
6. Feyziyeva, K.V. Azərbaycanda uveitin klinik-epidemioloji xüsusiyyətləri, fəsadları və əlillikdə payı // Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş "Oftalmologiyanin aktual problemləri" Beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı, – 2023. – s. 103-111.
7. Гасанов, Д.В. Ранние результаты эффективности глаукомных дренажей Ахмеда и Бервельдта при рефрактерной глаукоме в Азербайджане / Д.В.Гасанов, Э.М.Касимов, Х.И.Рамазанова [и др.] // Азербайджанский офтальмологический журнал, – Баку: – 2020. 33(2), – с. 39-49.
8. Belkin, A. Gonioscopy-assisted transluminal trabeculotomy is an effective surgical treatment for uveitic glaucoma / A.Belkin, Y.V.Chaban, D.Waldner [et al.] // Br. J. Ophthalmol., – 2023. May; 107(5), – p. 690-697. https://doi.org/10.1136/bjophthalmol-2021-320270
9. Sherman, E.R. Overcoming diagnostic and treatment challenges in uveitic glaucoma / E.R.Sherman, M.Cafiero-Chin // Clin. Exp. Optom., – 2019. Mar; 102(2), – p. 109-115. https://doi.org/10.1111/cxo.12811